# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun**
**"Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin**
**(EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Multikultural mühitdə müasir demoqrafik göstəricilərin sosial-mədəni dəyərlərə təsiri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Cabbarov Rəşid Vəkil oğlu**
Qrantın məbləği: **22 600 manat**
Layihənin nömrəsi: **EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/08/5-M-05**
Müqavilənin imzalanma tarixi: **17 avqust 2020-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **6 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 sentyabr 2020-ci il – 01 mart 2021-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar<br>Layihənin yerinə yetirilməsi zamanı A.Maslounun, D.Kaqanın, D.Leontyevin metodoloji yanaşma-larından istifadə olunmuş,sosial-psixoloji və milli-etnik zəmin əsas kimi götürülmüşdür.Tədqiqatda sosial-mədəni dəyərlərin ölçülməsi üçün Ş.Şvartsın fərdi dəyərlər sorğusundan, S.Şostromun SAT metodikasından və anket sorğusundan istifadə olunmuşdur. |
| | |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlər cari rüb üçün 90 % yerinə yetirlimişdir. |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |

| | |
|---|---|
| | Apardığımız təhlillər göstərdi ki, sosial-mədəni amillərin tarnsformasiyası müxtəlif amillərin təsirindən qaynaqlanır.Müəyən edildi ki, şəxsiyyət keyfiyyətləri ilə soial mədəni dəyərlər arasınada pozitiv istiqamətli korrelyasiya vardır, amma bu tendensiya xarakterlidir. Bununla yanaşı özünügerçəkləşdirmə dəyərləri ilə şəxsiyyət keyfiyyətləri arasında əlaqə digər dəyərlərə nisbətən daha yüksəkdir. Bununla yanaşı müxtəlif istiqamətli keyfiyyərlərlə özünügerçəkləşdirmə arasında əlaqələr iki tərəflidir. Belə qənaətə gəlmək olar ki, bu dəyərlər individal xarakterlidir və sosial mədəni dəyərləri özünündə qismən ehtiva edir. Aşkar olundu ki, multikultural və alturistik dəyərlərlə şəxsiyyət keyfiyyətləri arasında əlaqələr bir neçə keyfiyyət üzrə pozitiv yönümlüldür. Tədqiqat göstərdi ki, tələbələrin dəyərləri ilə akademik naliyyət, maddi vəziyyət və demoqrafik amillər arasında korrelyativ əlaqə əhəmiyyətlidir. tədqiqat göstərdi ki, şəhərdə yaşayan yeniyetmə-gənclərin dəyərləri ilə onların valideynlərinin dəyərləri arasında uyğunluq rayonda yaşayan yeniyetmə-gənclərin və onların valideynlərinin dəyərlərindən fərqli olaraq bir-birinə daha uyğundur. Deməli, dəyərlərin trasformasiyası posesində demoqrafik amilin rolu yüksəkdir və kənd yerlərində bu proses fərqli dinamikaya malikdir. Ümumilkdə tədqiqat göstərdi ki, dəyərlərin transformasiyasında əhəmiyyətli fərqlər cüzidir və bu fərqlər tendensiya xarakterlidir.Belə nəticəyə gəlmək olar ki, tələbələrdə sosial-mədəni dəyərlərin formalaşdırılması üçün şəxsiyyət keyfiyyətlərini, o cümlədən özünügerçəkləşdirmə imkanlarını artırmaq və bunun üçün əlverişli təhsil mühiti yaratmaq lazımıdır.<br>Tədqiqat işinin nəticələri həm nəzəri, həm də prkatik planda gələcək tədqiqatlarda istifadə perspektivləri yüksəkdir. Belə ki, alınmış nəticələr multikulturalizimin və humanistik dəyərlərin inkişaf etdirilməsi, o cümlədən sosial-mədəni şəraitin dəyərlərə təsiri kontekstində mövcud yanaşmaları zənginləşdirə və bu istiqamətdə aparılan tədqiqatların metodoloji əsası kimi çıxış edə bilər. Bununla yanaşı müxtəlif seçmə fənlərin, həmçinin ümuumi və sosial psixologiyanın tədrisində, bu istiqamətli layihələrin həyata keçirilməsində praktik vəsait kimi çıxış edə, zəruri yol və vasitələrin göstərilməsində əsaslı təcrübə kimi götürülə bilər.Həmçinin nəticələr elmi- tədqiqat layihə, dövlət və proqramlarında, dövlət qurumlarının sahə tədqiqat proqramlarında da istifadə edilə bilər. |
| **4** | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*<br>1. Students'values and their Mental Health During Pandemic. Propósitos y Representaciones, Journal of Educational Psychology of the Universidad San Ignacio de Loyola, Volume 9, Number 2, 2021 (Web of Science)<br>2. "Psychological Direction of the Formation of Multicultural Values Among Students of Different Faculties", Journal online de Política e Gestão Educacional. Volume 3, february 2021 (Web of Science)<br>3. Psychological issues of formation of socio-cultural values in students. Journal of Apuntes Universitarios Volume 3, 2021 (Web of Science)<br>*4.* The Role of Values in Forminğ the identity of migrants. Behavioral Psychology. (Web of Science – İmpact faktor - Q4 )<br>*5.* Təhsildə dəyərlərin formalaşması istiqamətləri // Odlar Yurdu Universitetinin Elmi Xəbərləri (çapa göndərilimiş). |
| | |
| **5** | İxtira və patentlər, səmərələşdirici təkliflər |

| | |
|---|---|
| | Yoxdur. |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | Yoxdur |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | Yoxdur |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>Yoxdur |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | Yoxdur. |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | Yoxdur |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | Yoxdur |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | Yoxdur |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | Yoxdur |
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | Yoxdur |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | Yoxdur |

**SİFARİŞÇİ:**

**Elmin İnkişafı Fondu**

**Aparıcı məsləhətçi**

**Hüseynzadə Leyla İlqar qızı**

__________________

**(imza)**

**“ __” ________ 2021-ci il**

**İCRAÇI:**

**Layihə rəhbəri**

**Cabbarov Rəşid Vəkil oğlu**

_________________

***(imza)***

**“ __” ________ 2021-ci il**

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Multikultural mühitdə müasir demoqrafik göstəricilərin sosial-mədəni dəyərlərə təsiri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Cabbarov Rəşid Vəkil oğlu**
Qrantın məbləği: **22 600 manat**
Layihənin nömrəsi: **EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/08/5-M-05**
Müqavilənin imzalanma tarixi: **17 avqust 2020-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **6 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 sentyabr 2020-ci il – 01 mart 2021-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulma

### Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | Apardığımız tədqiqat göstərdi ki, irəli sürdüyümüz fərziyyə, yəni tələbələrdə sosial-mədəni dəyərlər sisteminin formalaşması həyatdan məmnunluq dəyərləri və özünügerçəkləşdirmə meylləri ilə şərtlənmişdir- təsdiqləndi. Tədqiqat göstərdi ki, özünügerçəkləşdirmə dəyəri digər dəyərlər blokunda aparıcı mövqeyə malikdir, multikultural və demoqrafik amillərdən fərqli olaraq daha qabarıqdır. Bir faktı nəzərə almaq lazımdır ki, sosial-mədəni amillərin formalaşması birxətli deyil, müxtəlif amillərin təsiri ilə gerçəkləşir.<br>Tədqiqat göstərdi ki, tələbələrin dəyərləri ilə akademik naliyyət, maddi vəziyyət və demoqrafik amillər arasında korrelyativ əlaqə əhəmiyyətlidir. Burada hər üç parametr üzrə təhlükəsizlik dəyərləri üstünlük təşkil edir.Aydın oldu ki, müxtəlif fakültələrdə təhsil alan tələbələr arasında sosial-mədəni dəyərlər sisteminin formalaşması prosesi fərdi xüsusiyyətləri və özünüdərketmə meylləri ilə müəyyən edilir. Lakin bu amillərlə yanaşı demoqrafik amillər, maliyyə vəziyyəti və |

sosial yönümlülük də mühüm rol oynayır. Araşdırma göstərdi ki, tədqiqatın nəticələri qismən Butaeva (2018), Borisova (2002), Bubnova (2008), Budinaite (1993) və b. tədqiqatları ilə üst-üstə düşür. Bu tədqiqatlarda yüksək özünhörmət, empatik düşüncə də daxil olmaqla şəxsiyyət xüsusiyyətləri sosial-mədəni dəyərlərin formalaşmasında aparıcı amil hesab olunur. Bununla yanaşı, sosial kontekstin və ya demoqrafik amilin mövcud prosesə təsiri digər tədqiqatlarda da öz əksini tapmışdır (Cabbarov, 2016 ; Mustafayev M.2017). Bununla yanaşı tədqiqatımıza zidd olan bir sıra işlər vardır (Kaghi-Tchibashi, 1989; Woodward, Hales, eric.al., 2000). Bu tədqiqatlarda dəyərlərin formalaşmasının bir neçə mərhələsi qeyd olunur (müstəqil seçim; alternativ seçim; düşüncə nəticələri) . kontekstdə baxıldı; dərəcəsi və dərəcəsi və s.). Bu tədqiqatlarla müqayisədə zaman və məkan fərqini nəzərə alaraq dəyərlərin formalşmasına və transformasiyasına yeni dəyərlərin əlavə olunduğunu qeyd etmək olar. Əlavə olaraq, bu tədqiqatlarda tədqiqat obyektinin fərqli istiqamətləri nəticələrin fərqli fonuna gətirib çıxarmışdır.

Sosial-mədəni dəyərlər həm də təşkilatın fəaliyyətinin effektiv qavranılmasından xeyli dərəcədə asılıdır. Tədqiqatlar göstərir ki, fərdlər və qruplar arasındakı işdən narazılığın çoxu təşkilatın sosial-mədəni kontekstindən qaynaqlanır (Manisha & Misra, 1993). Bu o deməkdir ki, sosial persepsiya da sosial-mədəni dəyərlərə əhəmiyyətli dərəcədə təsir göstərir. Sosial-mədəni dəyərlərin formalaşması yalnız psixoloji amillərin təsiri ilə deyil, həm də insanın yaşadığı və inkişaf etdiyi tarixi məkanla da müəyyən edilir. Ascarizad (2019) tərəfindən aparılan bir araşdırma göstərdi ki, tarixi məkan və onun elementləri sosial-mədəni dəyərlərin formalaşmasına hərtərəfli təsir göstərir. Bundan əlavə, ünsiyyətin sosial-mədəni dəyərlərin formalaşmasına təsiri yüksəkdir (Bykova, 2013).

Karyera istəklər kollektiv dəyər istəkləri ilə müsbət əlaqəli olduğu aşkar edilmişdir (Grishma, & Esi, 2014). Bu fakt sosial-mədəni dəyərlərin formalaşması prosesinin fərdi bir kontekstdə karyera istəkləri ilə əlaqələndirilə biləcəyini təsdiqləyir. Tədqiqatımızla müqayisədə dəyərlər və demoqrafik amillər arasındakı uyğunsuzluq (Alfonso, Claudia, etic.al, 2012) cəmiyyətdəki ümumi əhval-ruhiyyənin təsiri ilə izah edilə bilər. Bu həqiqət araşdırma ilə birmənalı şəkildə təsdiqlənir.Tədqiqatın nəticəsindən belə bir qənaətə gəlmək olar ki, müxtəlif Universitetlərdə oxuyan tələblərin dəyərlərinin uyğunluğu, özünügerçəkləşdirmə dəyərləri, multikultural dəyərlər və demoqrafik amillərin təsiri nəticəısində dəyişir və onlar arasında əhəmiyyətli fərqlər özünü göstəirir.

Tədqiqatlar göstərdi ki, dominantlıq təşkil edən sosial-mədəni dəyərlər sistemi və məcmusu cəmiyyətin tarixi və mədəni xüsusiyyətlərini konsentarsaiya olunmuş şəkildə inikas etdirir [Trommsdorff, G.,2009].Sosial-mədəni dəyərlər həm dəyərləri, həm də sərvət dəyərlərini, sosial yönəlişlikləri, sosial imperativləri özündə əks etdirir. Müəyyən edilmişdir ki, sərvət dəyərləri-şəxsiyyətin daxili (dizpozision) sturkturunun elementləri olub, sosializasiya və sosial adaptasiya prosesində fərdin formalaşmış və möhkəmlənmiş həyat təcrübəsi ilə şərtlənir [Roest, A. M. C., Dubas, J. S., & Gerris, J. R. M.,2009]. Sərvət dəyərlərini sosial situasiyalarda münasibətlərin, davranışların, eləcə də fərdi və qrup qavrayışının qəbuluna imkan verən prinsiplər kimi səciyyələndirmək olar. Sərvət dəyərləri həm də sosial davranış modellərini, onların istiqamətini müəyyənləşdirir, sosial mədəni dəyərlərin təşəkkül istiqamətlərini göstərir. Bir sıra tədqiqatların [Kuczynski, L., & Navara, G. S., 2006] təhlili göstərir ki, dəyərlərin, o cümlədən sosial-mədəni dəyərlərin sabit olduğunu söyləmək çətindir. Onların davamlılığı dinamik səciyyə daşıyır. Hətta dəyərlərin formalaşması mərhələsində belə dəyərlər nə qədər sabit olsa da, transformasiyaya, və ya transmissiyaya məruz qalır. Cəmiyyətin dəyişkənliyi, o cümlədən qeyri-sabitlik vəziyyətində dəyərlər radikal səciyyə daşıyır. Deməli dəyərlərin istiqamətlərinin müəyyən edilməsi cəmiyyətdə mövcud olan siyasi sabitliyin qorunması baxımından da əhəmiyyətlidir. Bununla yanaşı aparılmış tədqiqatlar [Boehnke, K., Hadjar, A., & Baier, D.,2007] göstərir ki, dəyərlər həm də mədəniyyət bulaqlarından su içir.Sosial-mədəni mühitlə səciyyələnir. Fərdləri birləşdirən mədəni sərhədlər, etnoslar, qruplar və s. yalnız maddi tələbatların ödənməsini həyata keçirmir, həm də şəxsi təhlükəsizliyi təmin edir, müəyən qaydalar yaradır, əxlaqi prinsiplər

formalaşdırır, adətlər-ənənələr yaradır və davranış formaları müəyyən edir. Bir faktı da nəzərə almaq lazmdır ki, şəxsiyyətin şüurunun müxtəlif altstrukturlarının, o cümlədən dəyərlərin formalaşması daha çox o sosial-iqtisadi şəraitlə müəyyən edilir ki, həmin şəraitdə insan öz həyat fəaliyyətini gerçəkləşdirir. Ona görə də cəmiyyətin formalaşması prosesində şəxsiyyətin social-mədəni dəyərlər sistemi və müxtəlif sosial qruplar bütünlüklə qanunauyğun olaraq transformasiya olunur və ya transmissiyaya məruz qalır.

Demoqrafik amillərin sosial-mədəni dəyərlərə təsirini öyrənmək üçün apardığımız tədqiqat göstərdi ki, sosial-mədəni dəyərlərə demoqrafik amil ciddi təsir göstərir. Burada əsas göstərici özünütəsdiq dəyəri digər dəyərlər blokunda aparıcı mövqeyə malikdir. Bir faktı nəzərə almaq lzımdır ki, kənd yerlərində yaşayanlarda ictimai nəzarət şəhərdə yaşayanlara nisbətən daha yüksəkdir və buna görə də hər hansı normdan kənara çıxmalar burada müşahidə olunmur.Bunu aparılmı tədqiqatlar da təsdiq edir. Kənd yerlərində yaşayanlarda dəyərlərin müqayisəsinin əhəmiyyətlilik dərəcəsi şəhərdə yaşayanlara nisbətən aşağıdır.Bu nəticələr bir çox tədqiqatların nəticələri ilə üst-üstə düşürü, bəziləri isə fərqlənir. Şəhərdə yaşayan insanlar ekologiya problemi ilə rastlaşdıqlarından onların təbiəti mühafizə dəyərləri özünün “xarici status” səviyyəsinə gəlib çatır [Yadov, 1975]. Ancaq rayonda və kənd yerlərində yaşayanlar üçün ekologiya problemi bir o qədər aktual deyil. Bu baxımdan kənd yerlərində yaşayan valideynlər üçün bu dəyərləri öz uşaqlarına ötürməsi bir o qədər aktual sayılmır. Bununla yanaşı bizim apardığımız tədqiqatın nəticələri digər tədqiqatlarla, o cümlədən D.Barninin tədqiqatları ilə üst-üstə düşür [Barni et.al., 2011]. Barninin tədqiqatlarında yeniyetmə-gənclər və valideynlərin dəyərlərinin müqayisəsində daha çox “Yeniliyə açıqlıq” və “Mühafizəkarlıq” blokları üzrə fərqlənir. Barni göstərir ki, yeniyetmə-gənclərin fikrincə, valideynləri onları daha çox “Mühafizəkarlıq” dəyərləri üzrə köhnə ənənləri qorumağa təhrik edirlər.Ancaq onların özləri, yəni yeniyetmələr daha çox “Yeniliyə açıqlıq” dəyərinə üstünülük veririlər. Bu baxımdan yeniyetmələr valideynlərin təqdim etdiyi dəyərlərdən imtina edir və özlərinin yeni dəyərlərini yaratmağa çalışırlar. Bu isə dəyərlərin qarşıdurması kimi səciyyələndirilə bilər. Yəni sosial-mədəni dəyərlərlə demoqrafik amillər arasında ziddiyyət ortaya çıxır.Bütün bunlarla yanaşı sosial kontekstin və ya demoqrafik amilin mövcud prosesə təsiri yalnız bizim apardığımız tədqiqatda deyil, həm də başqa tədqiqatlarda rast gəlinir [Fulgini, Zhang, 2004; Yarova, 2010; Jabbarov, 2017]. Bu tədqiqatların nəticələri aparılmış bir çox tədqiqatların nəticələri ilə üst-üstə düşür [Barni, 2009; Steca et.al., 2012, Fulgini, Zhang, 2004; Jabbarov et.al., 2018]. Bütün bunlara əsasən təsdiq etmək olar ki, yaşayışın sosial-psixoloji konteksti dəyərlərin transformasiyasına əhəmiyyətli təsir göstərir.

Müasir Azərbaycan cəmiyyəti multikultural dəyərlərdən, tolerantlıqdan, milli-mədəni ənənələrdən qaynaqlanan, siyasi və sosial-iqtisadi dəyərlər üzərində qurulmuşdur. Yeni dəyərlərin transmissiyası və transformasiyası cəmiyyət həyatında keyfiyyət dəyişiklikləri yaratmalqa yanaşı, həm də dəyərlərin transformasiyasında ziddiyyətli hallar yaradır. Bütün bunlar isə sosial imperativlərdə və sosial-mədəni dəyərlərdə, şəxsiyyət münasibətlərinidə yeni məqamların ortaya çıxmasına zəmin yaradır.

Sosial-mədəni dəyərlərin transformasiyası faktını cəmiyyətin inkişafının dinamikliyi də diktə edir.Bu baxımdan müasir həyatın əsas spesifik cəhəti ondan ibaraətdir ki, bu cəmiyyətdə yeniyetmə-gənclərlə böyüklər arasında aksiloji qarşıdurma ortaya çıxır. Bu dəyərlərin mənimsənilməsində erkən təcrübənin olmamasından qaynaqlanır. Belə vəziyyətin yaranmasına təsir göstərən amillər müxtəlifdir. Bura iqtisadi, siyasi, mənəvi, psixoloji və sosial-mədəni amilləri aid etmək olar.

Sosial-mədəni dəyərlərdə ziddiyyət özünü tələbat yönümündə, modada, cinsi maraqlarda, davranış normalarında, geyimdə, sağlamlığa münasibətdə və s. təzahür etdirir. Bunun başlıca səbələrindən biri istensal münasibətlərinin insan amilini qabaqlaması və cəmiyyət həyatında bu amilin üstünlük təşkil etməsidir. İqtisadi fəlaiyyətin proqresiv səciyyəsi gənclərdə varlanmaq, hakmiyyət, preistij, sosial nailiyyətlər, öz atalarının etmədiklərini həyata keçirmək və ya onlardan üstün olmaq cəhdlərini zərurətə çevirir. Ancaq belə cəhdlər əsaslı olmadıqda heç də həmişə

| | |
|---|---|
| | pozitivyönümlü olmur. Bir məqamı da diqqət mərkəzinə gətirmək lazımdır ki, sosial-mədəni dəyərlərin formalaşamasnda demoqrafiq amillərdə üstünlük təşkil edir. Tədqiqatın nəticəsindən belə bir qənaətə gəlmək olar ki, şəhər və kənd mühiti, yəni demoqrafiq amillər multikultural şəraitdən asılı olmayaraq sosial-mədəni dəyərlərə, ümumiyyətlə dəyərlər sisteminə hərtərəfli təsir göstərir. Müxtəlif qruplarda dəyərlərinin uyğunluğu demoqrafik amillərin təsiri nəticəısində dəyişir və onlar arasında əhəmiyyətli fərqlər özünü göstəirir. Sosial-psixoloji kontekst dəyərlərin transformasiyasına əhəmiyyətli təsir göstərir. Bu nəzərdən qaçırılmamlıdır.Sosial-mədəni dəyərlərin transformasiyası şəhər həyatında rayon yerlərinə nisbətən daha sabitdir və bir çox hallarda dəyişilməyə məruz qalmır. Rayonlarda isə əksinə dəyərlərin transformasiyasında bir dinamiklik müşahidə olunur. Sosial-psixoloji kontekst dəyərlərin transformasiyasına əhəmiyyətli təsir göstərir. Bütün bunları nəzərə alıb dəyərlərin formalaşmasının poizitiv yönümlüyünü təmin etmək üçün şəxsiyyət keyfiyyətlərinin inkişaf etdirilməsi, o cümlədən milli-mənəvi dəyərlərin qorunub saxlanması üçün əlverişli təhsil mühiti formalaşdırılmalıdır |
| **2** | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)* *yoxdur.* |

1. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | "Multikultural mühitdə müasir demoqrafik göstəricilərin sosial-mədəni dəyərlərə təsiri" mövzusunda apardığımız tədqiqat işinin nəticələri həm nəzəri, həm də prkatik planda gələcək tədqiqatlarda istifadə perspektivləri yüksəkdir. Belə ki, alınmış nəticələr multikulturalizimin və humanistik dəyərlərin inkişaf etdirilməsi, o cümlədən sosial-mədəni şəraitin dəyərlərə təsiri kontekstində mövcud yanaşmaları zənginləşdirə və bu istiqamətdə aparılan tədqiqatların metodoloji əsası kimi çıxış edə bilər. Bununla yanaşı müxtəlif seçmə fənlərin, həmçinin ümuumi və sosial psixologiyanın tədrisində, bu istiqamətli layihələrin həyata keçirilməsində praktik vəsait kimi çıxış edə, zəruri yol və vasitələrin göstərilməsində əsaslı təcrübə kimi götürülə bilər.Həmçinin nəticələr elmi- tədqiqat layihə, dövlət və proqramlarında, dövlət qurumlarının sahə tədqiqat proqramlarında da istifadə edilə bilər. |

| | |
|---|---|
| **SİFARİŞÇİ:** | **İCRAÇI:** |
| **Elmin İnkişafı Fondu** | |
| **Aparıcı məsləhətçi** | **Layihə rəhbəri** |
| **Hüseynzadə Leyla İlqar qızı** | **Cabbarov Rəşid Vəkil oğlu** |
| ___________________ | __________________ |
| **(imza)** | **(imza)** |
| **" __" ________ 2021-ci il** | **" __" ________ 2021-ci il** |

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Multikultural mühitdə müasir demoqrafik göstəricilərin sosial-mədəni dəyərlərə təsiri**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Cabbarov Rəşid Vəkil oğlu**
Qrantın məbləği: **22 600 manat**
Layihənin nömrəsi: **EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/08/5-M-05**
Müqavilənin imzalanma tarixi: **17 avqust 2020-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **6 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 sentyabr 2020-ci il – 01 mart 2021-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | *Monoqrafiyalar* | Yoxdur. | | |
| | həmçinin, xaricdə çap olunmuş | Yoxdur. | | |

| | | | | |
|---|---|---|---|---|
| 2. | *Məqalələr* | 1 | | 1 |
| | | 4 | 3 | 1 |
| | | | | |
| | *həmçinin xarici nəşrlərdə* | | | |
| 3. | *Konfrans materiallarında məqalələr* | Yoxdur. | | |
| | *O cümlədən, beynəlxalq konfras materiallarında* | | | |
| 4. | *Məruzələrin tezisləri* | Yoxdur. | | |
| | *həmçinin, beynəlxalq tədbirlərin toplusunda* | Yoxdur. | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | Yoxdur. | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | Yoxdur. | | |
| 2. | İxtira | Yoxdur. | | |
| 3. | Səmərələşdirici təklif | Yoxdur. | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, | Məruzənin növü (plenar, dəvətli, şifahi, | Sayı |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| | | regional, beynəlxalq) | divar) | |
| 1. | Yoxdur. | | | |
| 2. | | | | |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Aparıcı məsləhətçi**
**Hüseynzadə Leyla İlqar qızı**

**__________________**
**(imza)**
**“ __” ________ 2021-ci il**

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Cabbarov Rəşid Vəkil oğlu**

**_________________**
**(imza)**
**“ __” ________ 2021-ci il**